

Əl işdən soyumaz, ürək arzudan...

# QƏBƏLƏ

Qəbələ rayonunun ictimai-siyasi qəzeti

1933-cü ildən nəşr olunur

№ 44-45 (7093-7094) ❀ Çərşənbə, 12 iyun 2013-cü il ❀ Qəzet ayda 4 dəfə çıxır ❀ Qiyməti 40 qəpik


## PREZİDENTİN İŞ GÜNDƏLİYİNDƏN

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Rusiya Federasiyasının ölkəmizdəki fövqəladə və səlahiyyətli səfiri Vladimir Doroxini qəbul etmişdir.

Söhbət zamanı ölkələrimiz arasında ikitərəfli münasibətlərin müxtəlif sahələrdə uğurla inkişaf etdiyi vurğulanmış, bu münasibətlərin gələcəkdə də inkişaf etdiriləcəyinə əminlik ifadə olunmuşdur.

❀ ❀ ❀

Ölkə başçısı İlham Əliyev, Rusiya Federasiyası Dövlət dumasının Beynəlxalq əlaqələr Komitəsinin sədri, Avropa Şurası Parlament Assambleyasında Rusiya nümayəndə heyətinin rəhbəri Aleksey Puşkovu qəbul etmişdir.

❀ ❀ ❀

Bakıda XX Beynəlxalq Xəzər neft, qaz, neftayırma, neft kimyası sərgi və konfransı işə başlamışdır.

Açılış mərasimində iştirak edən Azərbaycan Prezidenti İlham Əliyev geniş nitq söyləmişdir.

❀ ❀ ❀

Prezident İlham Əliyev Böyük Britaniya Parlamentinin üzvü, Baş nazirin Azərbaycan, Qazaxıstan və Türkmənistan ölkələrində ticarət məsələləri üzrə elçisinin başçılıq etdiyi nümayəndə heyəti ilə görüşmüşdür.

❀ ❀ ❀

Azərbaycan Prezidenti İlham Əliyev ABŞ dövlət katibinin enerji siyasəti üzrə müşavirini qəbul etmişdir.

❀ ❀ ❀

Bakıda Azərbaycan Milli İncəsənət Muzeyinin yeni keçid korpusu açılmışdır.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və xanımı Mehriban Əliyeva açılış mərasimində iştirak etmişlər.

**M. RƏHİMOV.**

# Yeni Azərbaycan Partiyası–bu günün və gələcəyin partiyası

***Yeni Azərbaycan Pariyasının V qurultayı keçirilmişdir. Qurultayda 2013-cü ildə keçiriləcək prezident seçkilərində partiyanın sədri, Azərbaycan Prezidenti İlham Əliyevin Azərbaycan Respublikasının prezidentliyinə namizədliyi irəli sürülmüşdür.***

İyunun 7-də Bakıda «Buta» sarayında Yeni Azərbaycan partiyasının (YAP) V qurultayı keçirilmişdir. YAP-ın 600 mindən çox üzvünü təmsil edən nümayəndələr partiyanın sədri, dövlətimizin başçısı İlham Əliyevi hərarətlə qarşılamışlar.






Partiyanın sədri, Azərbaycan Prezidenti İlham Əliyev qurultayda geniş nitq söyləmişdir. Möhtərəm Prezident İlham Əliyev nitqində partiyanın Cənubi Qafqazın ən böyük partiyası olduğu və son 20 ildə görülən işlər, əldə edilən uğurlar barədə danışmışdır. Cənab Prezident partiyanın və dövlətimizin həyata keçirdiyi sosial-iqtisadi siyasətin mərkəzində əsas amilin qüdrətli Azərbaycan, müstəqillik, inkişaf, sosial-rifah durduğunu nəzər diqqətə çatdırmışdır (İlham Əliyevin qurultaydakı nitqi mərkəzi mətbuatın səhifələrində dərc olunmuşdur).

Qurultayda YAP Səbail Rayon Təşkilatının sədri Zahid Qaralov çıxış edərək rayon və şəhər partiya təşkilatlarının konfranslarında səsləndirilmiş fikirləri, eləcə də son on ildə Azərbaycanda güclü quruculuq işlərinin görüldüyünü, indiyə qədər vəzifəsini ləyaqətlə yerinə yetirdliyini nəzərə alaraq ölkə prezidentliyinə partiyamızın lideri İlham Heydər oğlu Əliyevin namizədliyini irəli sürmüş və bu təklifə cənab Prezidentdən razılıq verməsini xahiş etmişdir.

Sonra qurultayda Yeni Azərbaycan Partiyası Naxçıvan Muxtar Respublikası Heydər Əliyev adına Gənclər Birliyinin üzvü Aytən İsmayılova, Laçın Rayon Ağsaqqallar Şurasının sədr müavini Əmirxan Zeynalov, Bakı Dövlət Universitetinin tələbəsi Yavər Məmmədova, Milli Məclisin deputatı Yevda Abramov, Masallıdan müəllimə Mehparə Məmmədova çıxış edərək, partiyanın sədri cənab Prezident İlham Əliyevin qarşıdakı prezident seçkilərində namizədliyinin irəli sürülməsi təklifini dəstəkləmiş və müdafiə etmişlər.

Qurultayda YAP-ın sədr müavini, icra katibi Əli Əhmədovun təqdimatı ilə qurultayın qərar layihəsi oxunmuş, Azərbaycan xalqının 6 minlik Yeni Azərbaycan Partiyası üzvlərinin iradəsi ifadə edilərək Azərbaycan Respublikasının Prezidenti, Yeni Azərbaycan Partiyasının sədri İlham Heydər oğlu Əliyev 2013-cü ilin prezident seçkilərində Yeni Azərbaycan Partiyası tərəfindən Azərbaycan Respublikasının prezidentliyinə namizəd irəli sürülmüşdür. Səsvermə zamanı qərar layihəsi yekdilliklə qəbul olunmuşdur.

Sonra Yeni Azərbaycan Partiyası Siyasi Şurasının üzvü Kərim Kərimov çıxış etmiş, V və VI qurultaylar arasındakı dövrdə Yeni Azərbacan Partiyasının sədrliyinə xalqımızın şanlı oğlu İlham Əliyevin namizədliyini irəli sürmüşdür. İlham Əliyev yekdilliklə partiyanın sədri seçilmişdir.

Həmin gün qurultayda partiyanın rəhbər orqanları da seçilmişdir. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev qurultayda Yeni Azərbaycan Partiyasının sədri seçilmişdir. Prezident İlham Əliyev ona göstərilən yüksək etimada görə Yeni Azərbaycan Partiyasına minnətdarlığını bildirmiş, partiyanın bütün üzvlərini əmin etmişdir ki, bundan sonra da partiyanın işində fəal iştirak etməklə Azərbaycanın uğurlu inkişafını təmin edəcəkdir.

Sonra YAP-ın Siyasi Şurasının 90 nəfərdən ibarət üzvləri seçilmişdir.

Siyasi Şuranın üzvləri daha sonra YAP-ın 21 nəfərlik idarə heyətinin tərkibini seçdilər.

Heydər Əliyev Fondunun prezidenti Mehriban Əliyeva, YAP-ın icra katibi Əli Əhmədov, Azərbaycan Milli Elmlər Akademiyasının prezidenti Akif Əlizadə, Baş nazirin müavini, Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsinin sədri Əli Həsənov YAP sədrinin müavinləri seçildilər.

Əli Əhmədov yenidən YAP-ın icra katibi, Siyavuş Novruzov və Mübariz Qurbanlı isə icra katibinin müavinləri seçildilər.

Sonra partiyanın 15 nəfərdən ibarət mərkəzi nəzarət-təftiş komissiyasının tərkibi seçildi.

Yeni Azərbaycan Partiyasının sədri, Prezident İlham Əliyev qurultaya yekun nitqi söylədi.

Yeni Azərbaycan Partiyasının V qurultayı Dövlət Himninin səslənməsi ilə başa çatmışdır.